***HEYDƏR BABA, ÖNDƏR BABA***

Sən haqqın hayqıran səsi,
Adın-qüdrət ucaliğı,
Vətənimin başı üstdə
Bu əzəmət ucalığı -
Heydər baba, Heydər baba!

***

Məramın da, mənzilin də
Başdan-başa məhəbbətdir,
Elimizə, dilimizə
Sevgi səndən əmanətdir-
Heydər baba, öndər baba!

** *

Sınaqlarda sınanların
Sırasını poza bildin,
Bu dünyanın yaddaşına
Azərbaycan yaza bildin
Heydər baba, öndər baba!

***

Tarixlərin qarşısında
Başıuca, üzüağsan,
Azərbaycan torpağında
Heydərbaba boyda dağsan,
Heydər baba, öndər baba!

***

Mənim üçrəngli bayrağım
Tac üstündə tac olacaq,
Ən möhtəşəm heykəllərin
Qarabağda ucalacaq,
Heydər baba, öndər baba!

**Ələmdar QULUZADƏ**

**Savalan. – 2010. - 7 -13 may. – S.2.**